# “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti

# Azərbaycan: Bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiya (AZURE) Layihəsi

# (P505208)

# Layihə
# ƏTRAF MÜHİT VƏ SOSİAL ÖHDƏLİK PLANI (ƏMSÖP)

## 4 Fevral 2025-ci il

## ƏTRAF MÜHİT VƏ SOSİAL ÖHDƏLİK PLANI

1. Kredit Sazişində müəyyən edildiyi kimi, "Azərenerji" Səhmdar Cəmiyyəti (Borcalan) "Azərbaycan: Bərpa Olunan Enerji Mənbələrinin şəbəkəyə inteqrasiya" layihəsinin (Layihə) icrasını həyata keçirəcəkdir. Sözügedən sazişdə müəyyən edildiyi kimi, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (Dünya Bankı) Layihə üçün maliyyə vəsaiti təmin etməyə razılaşmışdır.
2. Borcalan, Layihənin Dünya Bankı üçün məqbul qaydada Ətraf Mühit və Sosial Standartlara (ƏMSS-lər) və bu Ətraf Mühit və Sosial Öhdəlik Planına (ƏMSÖP) uyğun olaraq həyata keçirilməsini təmin etməlidir. ƏMSÖP Kredit Sazişinin bir hissəsidir. Bu ƏMSÖP-də başqa cür müəyyən edilmədiyi təqdirdə, burada istifadə olunan baş hərflərlə yazılan terminlər sözügedən sazişdə onlara verilən mənalara malikdir.
3. Yuxarıda qeyd olunanlara məhdudiyyət qoymadan, bu ƏMSÖP Borcalanın həyata keçirməli və ya həyata keçirilməsini təmin etməli olduğu əsas tədbir və fəaliyyətləri, o cümlədən onların vaxt çərçivələrini, institusional tədbirləri, heyət, təlim, monitorinq və hesabatvermə ilə bağlı razılaşmaları və şikayətlərin idarə edilməsi qaydalarını müəyyən edir. ƏMSÖP, həmçinin, Layihə çərçivəsində qəbul edilməli və həyata keçirilməli olan Ətraf Mühit və Sosial (ƏMS) alətləri müəyyən edir və bu alətlərin hamısı Dünya Bankı tərəfindən qəbul edilə bilən formada və mahiyyətdə və ƏMSS standartına uyğun şəkildə əvvəlcədən məsləhətləşmə və açıqlama proseslərindən keçməlidir. Qəbul edildikdən sonra, qeyd olunan ƏMS alətləri Dünya Bankının əvvəlcədən yazılı razılığı ilə, vaxtaşırı yenidən nəzərdən keçirilə bilər.
4. Dünya Bankı və Borcalan tərəfindən razılaşdırıldığı kimi, Layihənin icrası zamanı Layihə dəyişikliklərinin və gözlənilməz halların adaptiv idarə edilməsini təmin etmək üçün və ya Layihənin səmərəliliyi ilə əlaqədar zərurət olduqda, bu ƏMSÖP vaxtaşırı yenidən nəzərdən keçiriləcək. Belə hallarda, Borcalan və Dünya Bankı bu dəyişiklikləri əks etdirmək üçün Dünya Bankı və Borcalan arasında imzalanan məktubların mübadiləsi vasitəsilə ƏMSÖP-ü yeniləməyə razıdır. Borcalan yenilənmiş ƏMSÖP-ü dərhal açıqlamalıdır.

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| **MONİTORİNQ VƏ HESABATVERMƏ** | | | |
| A | **MÜNTƏZƏM HESABATVERMƏ**<br>Layihənin ətraf mühit, sosial, sağlamlıq və təhlükəsizlik (ƏMST) göstəriciləri, o cümlədən, lakin aşağıdakılarla məhdudlaşmayaraq, ƏMSÖP-ün icrası, ƏMSÖP çərçivəsində tələb olunan ƏMS alətlərinin hazırlanması və icrasının vəziyyəti, maraqlı tərəflərin cəlb edilməsi işləri və şikayət mexanizmlərinin fəaliyyəti haqqında Dünya Bankına müntəzəm monitorinq hesabatları hazırlamaq və təqdim etmək. | Layihənin icrası müddətində, Qüvvəyəminmə Tarixidən sonra başlamaqla, Dünya Bankına rüblük hesabatlar təqdim etmək. Hər bir hesabatı hesabat dövrünün bitməsindən sonra ən geci 30 təqvim günü ərzində Dünya Bankına təqdim etmək. | “Azərenerji” ASC |
| B | **HADİSƏLƏR VƏ QƏZALAR**<br>Layihə ilə əlaqədar, ətraf mühitə, təsirlənən icmalara, ictimaiyyətə və ya işçilərə əhəmiyyətli dərəcədə mənfi təsir göstərən və ya göstərməsi ehtimal olunan hər hansı bir hadisə və ya qəza, o cümlədən, lakin aşağıdakılarla məhdudlaşmayaraq, cinsi istismar və zorakılıq (CİZ), seksual qısnama (SQ) halları və ölüm, ciddi və ya çoxsaylı xəsarətlərlə nəticələnən qəzalar [əməliyyatın növünə uyğun olaraq digər hadisə və qəza nümunələrini göstərin] haqqında Dünya Bankını dərhal məlumatlandırmaq. Hadisə və ya qəzanın miqyası, ciddiliyi və mümkün səbəbləri barədə kifayət qədər ətraflı məlumat vermək, o cümlədən onu aradan qaldırmaq üçün görülən və ya planlaşdırılan təcili tədbirləri göstərmək və hər hansı bir podratçı və/və ya nəzarətçi şirkət tərəfindən təqdim edilən məlumatları təmin etmək.<br><br>Daha sonra, Dünya Bankının tələbi əsasında, hadisə və ya qəza haqqında hesabat hazırlamaq və onun aradan qaldırılması və təkrarlanmasının qarşısını almaq üçün hər hansı tədbirlər təklif etmək. | Hadisə və ya qəza haqqında məlumat aldıqdan sonra ən geci 48 saat ərzində Dünya Bankına məlumat vermək.<br><br>Daha sonra Dünya Bankı üçün məqbul müddət ərzində Dünya Bankına hesabat təqdim etmək. | “Azərenerji” ASC |
| C | **PODRATÇILARIN AYLIQ HESABATLARI**<br>Podratçılar və nəzarətçi firmalardan müvafiq tender sənədləri və müqavilələrdə göstərilən göstəricilərə uyğun olaraq ƏMST səmərəliliyi haqqında aylıq monitorinq hesabatları təqdim etmələrini tələb etmək və bu hesabatları Dünya Bankına təqdim etmək. | Aylıq hesabatları yuxarıdakı A tədbirinə uyğun olaraq təqdim edilməli olan hesabatlara əlavə kimi Dünya Bankına təqdim etmək. | “Azərenerji” ASC |
| **ƏMSS 1: ƏTRAF MÜHİT VƏ SOSİAL RİSKLƏRİN VƏ TƏSİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ EDİLMƏSİ** | | | |
| 1.1 | **TƏŞKİLATİ STRUKTUR**<br>Layihənin ƏMST risklərinin və təsirlərinin idarə edilməsini dəstəkləmək üçün ixtisaslı heyət və resurslara malik bir Layihə İdarəetmə Qrupu (LİQ) qurmaq və saxlamaq. Layihə İdarəetmə Qrupunun (LİQ) heyətinə ətraf mühit üzrə mütəxəssis, iki sosial mütəxəssis, maraqlı tərəflərlə iş üzrə mütəxəssis və əməyin mühafizəsi və təhlükəsizliyi (ƏMT) mütəxəssisi də daxil olmalıdır. | | “Azərenerji” ASC |

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| | | Kredit sazişində müəyyən edilmiş qaydada LİQ qurmaq və saxlamaq. Qüvvəyəminmə tarixdən əvvəl bir sosial mütəxəssis saxlamaq və həmin vəzifəni və daha əvvəl işə götürülmüş və tədbir 1.1-də qeyd olunan mütəxəssisləri Layihənin icrası boyunca saxlamaq. | |
| 1.2 | **ƏTRAF MÜHİT VƏ SOSİAL ALƏTLƏR**<br><br>**Hissə 1**<br><br>1. Aşağıdakıları əhatə edən Ətraf Mühitə və Sosial Sahəyə Təsirlərin Qiymətləndirilməsi (ƏMSSTQ) və müvafiq Ətraf Mühit və Sosial İdarəetmə Planı (ƏMSİP) hazırlamaq, açıqlamaq və məsləhətləşmək:<br><br>• **Abşeron-Qaradağ Külək Elektrik stansiyasının 330 kV-luq şəbəkəyə qoşulması**, o cümlədən: (i) Abşeron külək stansiyası yarımstansiyasından Nəvahi yarımstansiyasına 65 km birdövrəli 330 kV-luq EVX, (ii) Abşeron külək stansiyası yarımstansiyasından Qobu ES yarımstansiyasına 19 km birdövrəli 330 kV-luq EVX, (iii) Nəvahi yarımstansiyasından Ələt AİZ yarımstansiyasına qədər 22 km ikidövrəli 330 kV-luq EVX; (iv) Qobu ES yarımstansiyasında 330 kV-luq yuvaların genişləndirilməsi;<br>• **500 kV-luq ötürücü şəbəkənin gücləndirilməsi**, o cümlədən: (i) Azərbaycan İES yarımstansiyasından Navahi yarımstansiyasına qədər 235 km birdövrəli 500 kV-luq EVX; (ii) Navahi yarımstansiyasının (2xMVA) 500 kV-luq hissəsi üçün avadanlığın təchizatı və quraşdırılması (2x500 MVA) (iii) Abşeron və Azərbaycan İES yarımstansiyalarında 500 kV yuvaların genişləndirilməsi.<br><br>2. Müvafiq ƏMSS-lərə uyğun və Bankı qane edəcək şəkildə ƏMSSTQ və ƏMSİP qəbul etmək və icra etmək. | 1a. Qiymətləndirmədən əvvəl yenidən işlənmiş ƏMSTQ və ƏMSİP layihəsini açıqlamaq; Danışıqlardan əvvəl yenidən işlənmiş ƏMSTQ və ƏMSİP sənəd layihələri üzrə məsləhətləşmələr aparmaq.<br><br>1b. Layihənin Qüvvəyə minmə tarixindən sonra bir ay ərzində Bank üçün məqbul şəkildə ƏMSTQ/ƏMSİP sənədlərinin layihəsinə düzəlişləri yekunlaşdırmaq və Bankın razılığını aldıqdan sonra yenidən ictimaiyyətə açıqlamaq.<br><br>1c. ƏMSSTQ və ƏMSİP-ni inşaat işlərinə başlamazdan əvvəl aşağıda tədbir 6.1-də göstərilən əlavə biomüxtəliflik tədqiqatlarının təsbitlərini əks etdirmək üçün yeniləmək, daha sonra Layihənin icrası boyunca ƏMSSTQ və ƏMSİP-i qəbul etmək və icra etmək.<br><br>2. Tikinti işlərinə başlamazdan əvvəl ƏMSİP/ƏMSSTQ qəbul etmək. Qəbul edildikdən sonra, müvafiq ƏMSİP-i Layihənin icrası boyunca həyata keçirmək. | "Azərenerji" ASC |

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| 1.3 | **PODRATÇILARIN İDARƏ EDİLMƏSİ**<br>a) ƏMSÖP-ün müvafiq aspektlərini, o cümlədən müvafiq ƏMS alətlərini, Əməyin İdarəolunması Prosedurlarını və davranış qaydalarını satınalma sənədlərinin və podratçılar və nəzarətçi şirkətlərlə bağlanmış müqavilələrin ƏMST spesifikasiyalarına daxil etmək.<br><br>b) Podratçının ƏMSİP (P-ƏMSİP) sənədinin hazırlanmasını, qəbulunu və icrasını təmin etmək.<br><br>c) Daha sonra podratçılar və nəzarətçi şirkətlərin öz müvafiq müqavilələrinin ƏMST spesifikasiyalarına riayət etmələrini və onların subpodratçılarının da bu spesifikasiyalara riayət etmələrini təmin etmək. | a) Satınalma sənədlərinin və müvafiq müqavilələrin hazırlanması çərçivəsində.<br><br>b) Tikinti işlərinə başlamazdan əvvəl LİQ və Nəzarət Məsləhətçisi tərəfindən təsdiqlənmiş S-ƏMSİP-in mövcud olması.<br><br>c) Layihənin icrası boyunca podratçılara nəzarət etmək. | (b) fəaliyyəti üçün Azərenerji<br>Azərenerji podratçıların (b) üzrə fəaliyyətləri həyata keçirməsini təmin edəcəkdir |
| 1.4 | **TEXNİKİ YARDIM**<br>Məsləhət xidmətlərinin, tədqiqatların (müvafiq hallarda, texniki-iqtisadi əsaslandırmalar da daxil olmaqla), potensialın artırılması, təlim və Layihə çərçivəsində nəzərdə tutulan digər texniki yardım fəaliyyətlərinin ƏMSS-lərə uyğun olan və Dünya Bankı üçün məqbul olan texniki tapşırıqlara uyğun olaraq həyata keçirilməsini təmin etmək. Daha sonra bu fəaliyyətlərin nəticələrinin texniki tapşırıqlara uyğun olmasını təmin etmək. | Layihənin icrası boyu. | “Azərenerji” ASC |
| 1.5 | **ƏLAQƏLİ OBYEKTLƏR**<br>1. Üçüncü tərəflə müqavilə bağlamaq, müstəqil Ekoloji və Sosial Audit Tədqiqatı (ESDD) həyata keçirmək və Əlaqəli Obyektlər - Hökumət tərəfindən maliyyələşdirilən Navahi yarımstansiyası və Masdar tərəfindən maliyyələşdirilən Abşeron-Qaradağ Külək Elektrik Stansiyası üçün KOrrektiv Fəaliyyət Planı (CAP) hazırlamaq.<br><br>2. Navahi yarımstansiyasının tikintisi və istismarının bu ƏMSİP-nin və ESS-lərin, o cümlədən, digər məsələlərlə yanaşı, ESDDR, CAP, ƏMSTQ, ƏMSİP, LMP, podratçıların idarə edilməsi, SEP, RPF və RAP-ın tələblərinə uyğun həyata keçirilməsini təmin etmək.<br><br>3. Abşeron-Qaradağ Külək Elektrik Stansiyasının işlənməsi, tikintisi, istismara verilməsi və istismarının bu ƏMSİP-nin və ESS-lərin, o cümlədən, digər məsələlərlə yanaşı, ESDD, CAP, ƏMSSTQ, ƏMSİP, LMP, podratçıların idarə edilməsi, SEP, RPF və KTP-nin tələblərinə uyğun olaraq həyata keçirildiyini müəyyən etmək üçün Masdar və aidiyyəti dövlət qurumları ilə əlaqələndirməni təmin etmək. | 1) ESDD Hesabatının layihəsi və CAP Dünya Bankı üçün məqbul şəkildə yenidən işlənməli və danışıqlardan əvvəl açıqlanmalıdır. CAP-da müəyyən edilmiş müvafiq tədbirlər CAP-da müəyyən edilmiş müddət ərzində həyata keçirilməlidir.<br><br>2) Müvafiq ƏMS sənədlərinin və CAP-ın müddəalarına tikinti və istismar dövrləri ərzində riayət olunması təmin edilməlidir.<br><br>3) Müvafiq ƏMS sənədlərinin və CAP-ın müddəalarına Bankə və Biləsuvar GES-lərinin və Abşeron-Qaradağ KES-nin hazırlanması, tikintisi, işə salınması və | “Azərenerji” ASC<br><br>“Azərenerji” ASC<br><br>Azərenerji və Energetika Nazirliyi arasında anlaşma memorandum izzalanacaqdır |

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| | | istismarı dövrləri ərzində riayət olunması təmin edilməlidir. | |
| **ƏMSS 2: ƏMƏK VƏ İŞ ŞƏRAİTİ** | | | |
| 2.1 | **ƏMƏYİN İDARƏOLUNMASI PROSEDURLARI**<br>Layihə üçün Əməyin İdarəolunması Prosedurlarını (ƏİP) qəbul etmək və həyata keçirmək. O, aşağıdakılarla məhdudlaşmayaraq, iş şəraiti, işçilərlə münasibətlərin idarə edilməsi, əməyin mühafizəsi və təhlükəsizliyi (fərdi mühafizə vasitələri, fövqəladə hallara hazırlıq və cavab tədbirləri daxil olmaqla), davranış qaydaları (CİZ və SQ ilə bağlı), məcburi əmək, uşaq əməyin, Layihə işçiləri üçün şikayət mexanizmləri və podratçılar, subpodratçılar və nəzarətçi firmalara şamil olunan tələblər barədə müddəaları əhatə etməlidir. | Layihə işçilərini Dünya Bankının maliyyələşdirdiyi infrastruktur (1.2) və Əlaqəli Obyektlərə (1.5) cəlb etməzdən əvvəl ƏİP-i qəbul etmək və bundan sonra Layihənin bütün icrası müddətində onu icra etmək. | "Azərenerji" ASC |
| 2.2 | **LAYİHƏ İŞÇİLƏRİ ÜÇÜN ŞİKAYƏT MEXANİZMİ**<br>ƏİP-də təsvir olunan qaydada və ƏMSS2-ə uyğun şəkildə Layihə işçiləri üçün şikayət mexanizmi yaratmaq və tətbiq etmək. | Layihə işçilərini Dünya Bankının maliyyələşdirdiyi infrastruktur (1.2) və Əlaqəli Obyektlərə (1.5) cəlb etməzdən əvvəl şikayət mexanizmi yaratmaq və bundan sonra Layihənin bütün icrası müddətində onu saxlamaq və tətbiq etmək. | "Azərenerji" ASC |
| **ƏMSS 3: RESURSLARDAN SƏMƏRƏLİ İSTİFADƏ VƏ ÇİRKLƏNMƏNİN QARŞISININ ALINMASI VƏ İDARƏ OLUNMASI** | | | |
| 3.1 | **TULLANTILARIN İDARƏ EDİLMƏSİ PLANI**<br>ƏMSS3-ə uyğun olaraq və Dünya Bankı üçün məqbul şəkildə, Layihə çərçivəsində dəstəklənən enerji infrastrukturunun tikintisi və istismarı zamanı yaranan tullantıların idarə edilməsi üçün ƏMSSTQ və ƏMSİP çərçivəsində hazırlanacaq Tullantıların İdarə Edilməsi Planını (TİP) qəbul etmək və həyata keçirmək. | ƏMSSTQ və ƏMSİP-in qəbul edilməsi və həyata keçirilməsi üçün nəzərdə tutulmuş eyni müddət. | "Azərenerji" ASC |
| 3.2 | **RESURSLARDAN SƏMƏRƏLİ İSTİFADƏ VƏ ÇİRKLƏNMƏNİN QARŞISININ ALINMASI VƏ İDARƏ OLUNMASI**<br>1.2 nömrəli fəaliyyət çərçivəsində hazırlanacaq ƏMSİP-ə resursların səmərəliliyini daxil etmək.<br><br>ƏMSS3-ə uyğun olaraq və Dünya Bankı üçün məqbul şəkildə, ƏMSSTQ və ƏMSİP çərçivəsində hazırlanacaq Çirklənmənin Qarşısının Alınması Planı (ÇQAP) qəbul etmək və həyata keçirmək. | ƏMSSTQ və ƏMSİP-in qəbul edilməsi və həyata keçirilməsi üçün nəzərdə tutulmuş eyni müddət. | "Azərenerji" ASC |
| **ƏMSS 4: İCMANIN SAĞLAMLIĞI VƏ TƏHLÜKƏSİZLİYİ** | | | |
| 4.1 | **NƏQLİYYAT VƏ YOL HƏRƏKƏTİNİN TƏHLÜKƏSİZLİYİ**<br>Nəqliyyat və yol hərəkətinin təhlükəsizliyi üzrə riskləri idarə etmək üçün tədbirləri 1.2 nömrəli fəaliyyət çərçivəsində hazırlanacaq ƏMSİP-lərə daxil etmək. | | "Azərenerji" ASC |

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| | | ƏMSSTQ və ƏMSİP-in hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi üçün nəzərdə tutulmuş eyni müddət. | |
| 4.2 | **İCMANIN SAĞLAMLIĞI VƏ TƏHLÜKƏSİZLİYİ**<br>ƏMSSTQ-lər çərçivəsində Layihə fəaliyyətləri, o cümlədən Layihə işçilərinin davranışı, işçi qüvvəsi axını ilə bağlı risklər, fövqəladə hallara cavab tədbirləri ilə əlaqədar icmaya təsir edən riskləri və təsirləri qiymətləndirmək və bu təsirlərin azaldılması tədbirlərini ƏMSİP-lərə daxil etmək. | ƏMSSTQ və ƏMSİP-in hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi üçün nəzərdə tutulmuş eyni müddət. | “Azərenerji” ASC |
| 4.3 | **CİZ və SQ ilə bağlı risklər**<br>CİZ və SQ ilə bağlı riskləri qiymətləndirmək və idarə etmək üçün CİZ/SQ Fəaliyyət Planı hazırlamaq, qəbul etmək və həyata keçirmək. | Layihə başlamazdan əvvəl CİZ/SQ Fəaliyyət Planını hazırlamaq və daha sonra Layihənin icrası müddətində CİZ/SQ Fəaliyyət Planını qəbul etmək və həyata keçirmək. | “Azərenerji” ASC |
| 4.4 | **Təhlükəsizliyin idarə olunması**<br>Layihənin təhlükəsizliklə bağlı risklərini, o cümlədən layihə işçilərini, sahələri, resursları və ƏMSİP-də göstərilən tədbirləri qorumaq üçün təhlükəsizlik işçilərinin cəlb edilməsi risklərini idarə etmək üçün tədbirləri qiymətləndirmək və həyata keçirmək və bu zaman mütənasiblik və qabaqcıl beynəlxalq istehsalat təcrübəsi (GIIP) prinsiplərini, eləcə də bu işçilərin işə qəbulu, davranış qaydaları, təlimi, təchiz edilməsi və monitorinqi ilə bağlı tətbiq olunan qanunları rəhbər tutmaq. | ƏMSSTQ və ƏMSİP-in hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi üçün nəzərdə tutulmuş eyni müddət. | “Azərenerji” ASC |
| **ƏMSS 5: TORPAQLARIN ALINMASI, TORPAQDAN İSTİFADƏYƏ DAİR MƏHDUDİYYƏTLƏR VƏ MƏCBURİ KÖÇÜRÜLMƏ** | | | |
| 5.1 | **KÖÇÜRÜLMƏ SİYASƏTİ ÜZRƏ ÇƏRÇİVƏ SƏNƏDİ**<br>Layihə üçün ƏMSS5-ə uyğun olaraq, məsləhətləşmə əsaslı Köçürülmə Siyasəti Çərçivəsi (KSÇ) qəbul etmək və həyata keçirmək. | Dünya Bankının maliyyələşdirdiyi infrastruktur (1.2) və Əlaqəli Obyektlər (1.5) üçün işlərə başlamazdan əvvəl KSÇ-ni qəbul etmək və bundan sonra Layihənin bütün icrası müddətində onu icra etmək. | “Azərenerji” ASC |
| 5.2 | **KÖÇÜRÜLMƏ ÜZRƏ FƏALİYYƏT PLANLARI**<br>KSÇ-də göstərildiyi kimi və ƏMSS5-ə uyğun olaraq hər bir fəaliyyət üçün köçürülmə üzrə fəaliyyət planı (KFP) hazırlamaq, açıqlamaq və məsləhətləşmək, daha sonra qəbul etmək və icra etmək. | | “Azərenerji” ASC |

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| | | Dünya Bankının maliyyələşdirdiyi infrastruktur üçün işlər üzrə müqavilə imzalanmazdan əvvəl hazırlamaq, açıqlamaq və məsləhətləşmək və daha sonra müvafiq KFP-ni qəbul etmək və həyata keçirmək. KFP digər məsələlərlə yanaşı, torpaq və əlaqəli aktivlərin alınmasından əvvəl tam kompensasiyanın verilməsini, məcburi yerdəyişməyə məruz qalmış insanların köçürülməsini və yerdəyişmə müavinətlərinin verilməsinin təmin edilməsini nəzərdə tutmalıdır. | |
| 5.3 | **ŞİKAYƏT MEXANİZMİ**<br>Köçürülmə ilə bağlı şikayətləri həll etmək üçün şikayət mexanizmi (ŞM) KSÇ, KFP-lər və MTCP-də təsvir edilməlidir. | Dünya Bankının maliyyələşdirdiyi infrastruktur (1.2) və Əlaqəli Obyektlər (1.5) üçün işlərə başlamazdan əvvəl şikayət mexanizmini yaratmaq və işə salmaq və bundan sonra Layihənin bütün icrası müddətində onu saxlamaq və tətbiq etmək. | “Azərenerji” ASC |
| **ƏMSS 6: BİOMÜXTƏLİFLİYİN MÜHAFİZƏSİ VƏ CANLI TƏBİİ RESURSLARIN DAYANIQLI İDARƏ EDİLMƏSİ** | | | |
| 6.1 | **BİOMÜXTƏLİFLİKƏ BAĞLI RİSKLƏR VƏ TƏSİRLƏR**<br>1. ƏMSTQ və ƏMSİP-nin bir hissəsi kimi Layihə üçün hazırlanmış ƏMSTQ təlimatlarına uyğun və ƏMS6-ya uyğun olaraq Biomüxtəlifliyin İdarə Edilməsi Planı (BMP) hazırlamaq və həyata keçirmək.<br><br>2. Köçəri quşların qiymətləndirilməsi tədqiqatlarını və potensial kritik yaşayış areallarının qiymətləndirilməsini əhatə etmək üçün əlavə biomüxtəliflik tədqiqatları aparmaq. Bu tədqiqatlar miqrasiya, çoxalma və yuva qurma mövsümlərini əhatə edən bir neçə raundda aparılmalı və quşların mühafizəsi və kritik yaşayış arealları üçün tədbirlər də daxil olmaqla, təfərrüatlı təsir azaltma tədbirləri və ehtiyac olduqda və ESS6 ilə uyğun gələn kompensasiya tədbirləri barədə məlumat verilməlidir.<br><br>3. BİP-i yeniləyin və yenilənmiş ƏMSTQ-nin müddəalarına və ESS6-ya uyğun olaraq yenilənmiş BMP-ni açıqlayın və həyata keçirin. | 1. BİP-i yuxarıdakı 1.2 nömrəli fəaliyyət çərçivəsində ƏMSSTQ və ƏMSİP-in hazırlanması və qəbul edilməsi üçün nəzərdə tutulan eyni müddət ərzində hazırlamaq və qəbul etmək, və daha sonra Layihənin icrası boyunca onu tətbiq etmək.<br><br>2. Tikinti işləri ilə bağlı tender başlamazdan əvvəl layihə ərazisində miqrasiya, çoxalma və yuva qurma mövsümlərini əhatə edən əlavə biomüxtəliflik tədqiqatlarını həyata keçirmək. | “Azərenerji” ASC |

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| | 4. Tikinti işlərinin planlaşdırılmasını biomüxtəlifliyə dair əlavə tədqiqatların və yenilənmiş C-ESMP-nin nəticələri ilə uyğunlaşdırılmasını təmin edin.<br><br>5. Podratçılardan yuxarıda 1.3 və 1.4-cü tədbirlərdə qeyd olunan ƏMSİP, BİP və C-ƏMSİP-də tələb olunan və ƏMSİP və BİP-yə uyğun olaraq C-ƏMSİP-də tələb olunduğu kimi müvafiq biomüxtəliflik tədbirlərini qəbul etməyi və həyata keçirməyi tələb edin.<br><br>6. Bankın razılıq bildirməsi üçün tikintidən sonra quşların monitorinqi protokolunu hazırlayıb Banka təqdim etmək | 3a. Mövsümi miqrasiya müşahidələrinin nəticələrini və kritik yaşayış areallarının qiymətləndirilməsini birləşdirərək BİP-ni bir neçə mərhələdə yeniləmək. BİP-nin ilk yenilənməsi və açıqlaması 2024-cü ilin payızında köçəri quşların tədqiqatlarının nəticələrini özündə birləşdirməli və danışıqlardan əvvəl yekunlaşdırılmalıdır. Əlavə yeniləmələr 2025-ci ilin yazında quş tədqiqatlarından və kritik yaşayış arealının qiymətləndirilməsindən sonra aparılacaq və tikinti işləri üçün tender başlamazdan əvvəl yekunlaşdırılacaq.<br><br>3b. Layihənin icrası boyunca BİP-in yenilənməsini həyata keçirmək.<br><br>4. ƏMSTQ-də göstərildiyi və Dünya Bankı ilə razılaşdırıldığı kimi Layihə çərçivəsində müvafiq tikinti işlərinə başlamazdan əvvəl.<br><br>5a. Tikinti işlərinə başlamazdan əvvəl C-ƏMSİP hazırlamaq və bundan sonra tikinti işlərinin bütün müddətində həyata keçirmək.<br><br>5b. BİP-in yenilənməsindən sonra müvafiq olaraq C-ƏMSİP-i yeniləmək.<br><br>6. Tikinti başa çatana qədər üç aydan gec olmayaraq tikintidən sonra quşların monitorinqi protokolunu təqdim etmək. | |
| **ƏMSS 7: YERLİ XALQLAR/AFRİKANIN BÖYÜK SƏHRADAN CƏNUBDAKI HİSSƏSİNİN TARİXƏN KİFAYƏT QƏDƏR XİDMƏT GÖSTƏRİLMƏYƏN ƏNƏNƏVİ YERLİ İCMALARI** | | | |

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| Bu standartın bu layihəyə uyğun olmadığı hesab edilir. | | | |
| **ƏMSS 8: MƏDƏNİ İRS** | | | |
| 8.1 | **MƏDƏNİ İRSLƏ BAĞLI RİSKLƏR VƏ TƏSİRLƏR**<br>ƏMSSTQ-nin bir hissəsi olaraq mədəni irslə bağlı riskləri və təsirləri qiymətləndirmək və Layihə üçün hazırlanan ƏMSSTQ təlimatlarına və ƏMSS8-ə uyğun olaraq ƏMSİP-in bir hissəsi kimi Mədəni İrs üzrə İdarəetmə Planı (MİİP) hazırlamaq, qəbul etmək və icra etmək. | ƏMSSTQ və ƏMSİP-in hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi üçün nəzərdə tutulmuş eyni müddət. | "Azərenerji" ASC |
| 8.2 | **GÖZLƏNİLMƏZ TAPINTILAR**<br>Layihənin MİİP planında gözlənilməz tapıntılarla bağlı prosedurları təsvir etmək və icra etmək. | MİİP-də gözlənilməz tapıntılarla bağlı prosedurları təsvir etmək Prosedurları zərurətə uyğun olaraq Layihənin icrası müddətində tətbiq etmək. | "Azərenerji" ASC |
| **ƏMSS 9: MALİYYƏ VASİTƏÇİLƏRİ** [Bu standartlar yalnız maliyyə vasitəçilərinin cəlb olunduğu layihələrə şamil edilir).] | | | |
| Bu standartın bu layihəyə uyğun olmadığı hesab edilir. | | | |
| **ƏMSS 10: MARAQLI TƏRƏFLƏRİN CƏLB OLUNMASI VƏ MƏLUMATLARIN AÇIQLANMASI** | | | |
| 10.1 | **MARAQLI TƏRƏFLƏRİN CƏLB EDİLMƏSİ PLANININ HAZIRLANMASI VƏ HƏYATA KEÇİRİLMƏSİ**<br>ƏMSS10-a uyğun olaraq, ilkin Maraqlı Tərəflərin Cəlb Edilməsi Planını (MTCP) qəbul etmək və həyata keçirmək. Plana, digər məsələlərlə yanaşı, maraqlı tərəflərə vaxtında, müvafiq, anlaşılan və əlçatan məlumatların verilməsini, onlarla mədəni baxımdan uyğun və manipulyasiya, müdaxilə, məcburiyyət, ayrı-seçkilik və təhdidlərdən azad şəkildə məsləhətləşmələr aparmağı nəzərdə tutan tədbirlər daxil olmalıdır. | Dünya Bankının maliyyələşdirdiyi infrastruktur (1.2) və Əlaqəli Obyektlər (1.5) üçün işlərə başlamazdan əvvəl MTCP-ni qəbul etmək və bundan sonra Layihənin bütün icrası müddətində onu icra etmək. | "Azərenerji" ASC |
| 10.2 | **MTCP-NİN YENİLƏNMƏSİ VƏ HƏYATA KEÇİRİLMƏSİ**<br>ƏMSS10-a uyğun olaraq, ƏMSSTQ və ƏMSİP -nin nəticələri əsasında, MTCP-ni yeniləmək. Plana, digər məsələlərlə yanaşı, maraqlı tərəflərə vaxtında, müvafiq, anlaşılan və əlçatan məlumatların verilməsini, onlarla mədəni baxımdan uyğun və manipulyasiya, müdaxilə, məcburiyyət, ayrı-seçkilik və təhdidlərdən azad şəkildə məsləhətləşmələr aparmağı nəzərdə tutan tədbirlər daxil olmalıdır. | ƏMSSTQ və ƏMSİP-in hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi üçün nəzərdə tutulmuş eyni müddət. | "Azərenerji" ASC |
| 10.3 | **LAYİHƏ ÜZRƏ ŞİKAYƏT MEXANİZMİ**<br>ƏMSS10-a uyğun olaraq, Layihə ilə bağlı narahatlıqları və şikayətləri qəbul etmək və həllini asanlaşdırmaq üçün Layihədən təsirlənən bütün tərəflər üçün mədəni baxımdan uyğun və asanlıqla əlçatan olan, şəffaf, heç bir ödənişsiz və cəzasız, anonim olaraq təqdim edilə bilən şikayət mexanizmi yaratmaq, ictimailəşdirmək, saxlamaq və tətbiq etmək. | Dünya Bankının maliyyələşdirdiyi infrastruktur (1.2) və Əlaqəli Obyektlər (1.5) üçün işlərə başlamazdan əvvəl şikayət mexanizmini yaratmaq və işə salmaq və bundan sonra Layihənin bütün icrası müddətində onu saxlamaq və tətbiq etmək. | "Azərenerji" ASC |

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| | Şikayət mexanizmi CİZ/SQ şikayətlərini qəbul etmək, qeydiyyata almaq və həllini (zərərçəkənlərin müvafiq gender əsaslı zorakılıq üzrə xidmət təminatçılarına yönləndirilməsi yolu ilə və digər vasitələrlə) asanlaşdırmaq üçün təchiz edilməlidir. Bunların hamısı təhlükəsiz, məxfi və zərərçəkən yönümlü şəkildə təşkil olunmalıdır. | | |
| **POTENSİALIN GÜCLƏNDİRİLMƏSİNƏ DƏSTƏK** | | | |
| CS1 | LİQ heyəti üçün aşağıdakı mövzularda təlim:<br>• korporativ ətraf mühit və sosial idarəetmə sisteminin yaradılması<br>• ətraf mühit və sosial siyasətlər<br>• biomüxtəliflik, su axarları və çay ekosistemləri, tullantıların idarə edilməsi və çirklənmənin qarşısının alınması ilə bağlı risklər daxil olmaqla, ətraf mühit risklərinin idarə edilməsinin xüsusi aspektləri<br>• yol hərəkətinin təhlükəsizliyinin təmini<br>• təhlükəli və qeyri-təhlükəli tullantıların idarə olunması<br>• maraqlı tərəflərin cəlb edilməsi<br>• şikayətlərin idarə edilməsi<br>• hadisələrin idarə olunması və hesabatvermə<br>• fövqəladə hallara hazırlıq və cavab tədbirləri<br>• icmanın sağlamlığı və təhlükəsizliyi<br>• gender məsələləri, o cümlədən CİZ/SQ<br>• ətraf mühit və sosial göstəricilərin monitorinqi və hesabatı<br>İcma üzvlərinin aşağıdakılar barədə məlumatlandırılması:<br>• şikayətlərin idarə edilməsi<br>• elektromaqnit sahəsinin faktiki və düşünülən təsirləri<br>• fövqəladə halların qarşısının alınması və hazırlıq, fövqəladə hallara cavab tədbirləri<br>• İcmanın sağlamlığı və təhlükəsizliyi, o cümlədən CİZ/SQ aspektləri<br>• Tikintidən sonra biomüxtəlifliyin monitorinqi üzrə təlim<br>• Yerli icmalar üçün elektrik cərəyanı riskləri haqqında məlumatlandırma təlimi<br>• fövqəladə hallara hazırlıq və cavab tədbirləri (məsələn, təbii fəlakətlər və ya hər hansı digər risk) | Dünya Bankı tərəfindən maliyyələşdirilən infrastruktur (1.2) və Əlaqədar Obyektlər (1.5) üzrə işçilərin işə qəbulundan sonra bir ay ərzində tam təlim və məlumatlandırma sessiyası keçiriləcək və sonradan zərurət yarandıqda təkrar ediləcək. | "Azərenerji" ASC |
| CS2 | Layihə işçiləri üçün aşağıdakı mövzularda təlim:<br>• işçilər üçün şikayət mexanizmləri<br>• peşə sağlamlığı və təhlükəsizliyi, o cümlədən FMV-lərdən istifadə, əməyin təhlükəsizliyi, elektrik avadanlıqlarının istifadəsi, həyat və yanğından mühafizə prosedurları, iş saatlarına riayət olunması və s.<br>• İş yerində CİZ/SQ və davranış qaydaları<br>• fövqəladə halların qarşısının alınması və hazırlıq, fövqəladə hallara cavab tədbirləri | İşçilər işə götürüldükdən sonra bir ay ərzində və bundan sonra zərurətə uyğun olaraq, tam təlim və məlumatlandırma sessiyası. | "Azərenerji" ASC |

| ƏSAS TƏDBİRLƏR VƏ FƏALİYYƏTLƏR | | MÜDDƏT | CAVABDEH ORQAN |
|---|---|---|---|
| | • podratçıların işçilərinə ötürücü xəstəliklərin profilaktiikası tədbirləri və protokolları üzrə təlimlərin keçirilməsi. | | |